# Qətl günü

## ROMAN

Gözümün ağı-qarası iki qızıma – Mehribana və Humaya

– Yolun haradır, qardaş!
– Son mənzilədir, bacım.
(Bir xəstənin qulağına gələn səslərdən)

Dərd də azar kimi gələndə batmanla gəlir.

Hələ ulduzlar təkəmseyrəkdi – boz səmada bozumtul işıq vardı, gah öləziyirdi, elə bil, sönmək istəyirdi, gah da par-par parıldamağa başlayırdı. Külək hələ əsmirdi, hərdən qoşa vələsin kəlləsində ləpədöyənin səsinə bənzər bir səs qopurdu, deyirdin, yaxınlıqda dəniz var, amma bu səsdən adam diksinirdi. Burada kim vardısa, bilirdi ki, çox-çox uzaqlarda, hardasa dünyanın o başında bir külək yatağından baş qaldırır, Baba Kahanın zülmətində gərnəşir, ordan çıxıb, ağır-ağır, sürünə-sürünə, batman ləngəri ilə torpaqda dərin şırımlar açırdı, daş-qayanın gövdəsində uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa hazırlaşırdı. Burada kim vardısa, hələ çox-çox uzaqlarda həmləyə hazırlaşan küləyin qarğışını eşidirdi: ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin!

İnsanlar küləkdən bezmişdi, külək də insanlardan.

Qoşa vələsdən uzaqlarda, dağ döşündən başlanan meşənin seyrəkliyində, ağacların arasında bir qoca canavar qulaqlarını şəkləyib şöngümüşdü. Canavarın selikli burnu iy almışdı – dəmir iyi, qan iyi. Amma canavar da qorxu içində idi, ürəyinə nəsə dammışdı, bilirdi ki, ikiayaqlı bəndələrin düşərgə saldıqları yerə bu gün yavuq düşmək olmaz: ordan qarışıq səslər gəlirdi, dəmir dəmirə dəyirdi, elə bil kimsə zindanda çəkic çalırdı, at nallayırdılar nədir, amma bütün bu qarma-qarışıq səslərdə vahimə və xəbərdarlıq vardı – nə canavar, nə ayı, heç quş da quşluğu ilə gərək bu gün ora yaxın düşməyəydi, çünki bu gün Baba Kahanın zülmətində nəsə başqa bir əhvalat baş verməli idi – külək bütün aləmin, daşın, torpağın, göylərin, ulduzların qəzəbini canına hopdurmuşdu, dünyanın ikiayaqlılarına hədə göndərirdi: gəlirəm! Gəlirəm ki, haqq-hesab çəkəm, gəlirəm ki, görüm bu ikiayaqlı, dəmir libaslı, nizəli-qalxanlı, aylarla su üzü görməyən, kirdən-pasdan sifətləri qaralıb mis rənginə çalan bu ikiayaqlı şeytanlar niyə belə